# AZƏRBAYCAN XALQININ MILLI MATƏM GÜNÜ - XOÇALI SOYQIRIMININ ÜÇÜNCÜ ILDÖNÜMÜ ILƏ ƏLAQƏDAR MATƏM MƏRASIMINDƏ ÇIXIŞ

Müslüm Maqomayev adına
Azərbaycan Dövlət Filarmoniyası
26 fevral 1995-ci il

Hörmətli bacılar, qardaşlar, hörmətli həmvətənlər!

Biz, burada toplaşanlar - hamımız bu matəm mərasiminin təsiri altındayıq. Xocalı faciəsinin üçüncü ildönümü münasibətilə bütün Azərbaycan xalqına bir daha başsağlığı verirəm. Xalqımıza səbr diləyirəm. Allah Xocalı faciəsinin bütün qurbanlarına rəhmət eləsin. Onlar Azərbaycan xalqının milli azadlığı uğrunda, Azərbaycan Respublikasının ərazi bütövlüyü, suverenliyi, müstəqilliyi uğrunda həlak olublar, şəhid olublar. Bu gün biz hamımız o şəhidlərin ruhu qarşısında bir daha baş əyirik. Allah onlara rəhmət eləsin. Allah onların ailələrinə, buraya toplaşanların hamısına səbr versin. Allah Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda, torpaqlarımızın müdafiəsi uğrunda şəhid olanların hamısına rəhmət eləsin.

Bugünkü ədəbi matəm mərasimi, güman edirəm ki, bu salona toplaşanların hamısını həyəcanlandırdı. Xocalı faciəsi gözümüzün önündə bir daha canlandı. Biz kədər içindəyik, qəm içindəyik. Üç ildir ki, biz bu qəm-dərdi çəkirik. Bu gün biz Xocalı faciəsinin nə qədər dəhşətli faciə olduğunu və Azərbaycan xalqına nə qədər böyük zərbə vurduğunu bir daha dərk etdik, bir daha hiss etdik. Ancaq eyni zamanda, bu gün burada səslənən sözlər onu göstərir ki, bu faciə də, bu soyqırımı da, son altı ildə Azərbaycanın başına gələn bəlalar da xalqımızın iradəsini qırmayıbdır və qıra da bilməz! Əksinə, hər belə hal - Xocalı soyqırımı, Xocalı faciəsi, başqa faciələrimiz bu gün burada deyilən sözlər kimi, bizim hamımızda daha çox inam yaradır. Hamımızı daha cəsarətli, rəşadətli, mətanətli olmağa dəvət edir. Hamımızı dəvət edir ki, biz toplaşıb Xocalı faciəsinin cavabını verək, şəhidlərin qanının yerdə qalmaması gününü görək, Azərbaycanın ərazi bütövlüyünü təmin edək. Müstəqil
Azərbaycanın hüdudlarını tamamilə bərpa edək.

İnanıram ki, Azərbaycan xalqı belə qüdrətə malikdir. İnanıram ki, Azərbaycan xalqı buna nail olacaq yə inanıram ki, bugünkü gecə də hamımızı buna dəvət edir. İnanıram ki, bu gün burada səslənən sözlərdən hər kəs özü üçün nəticə çıxaracaqdır və mən də sizin kimi, gələcəyə nikbin baxıram.

Xalqımız uzun, çoxəsrlik tarixində belə bəlalardan çox keçibdir.

Belə qaranlıq günlərin işıqlı günləri olur, xoşbəxt günləri olur. Onlar qabaqdadır. Biz o günlərə doğru gedirik və heç vaxt başımızı aşağı salmamalıyıq. Biz qəmlənərək, eyni zamanda gücümüzü toplamalıyıq və toplayırıq da. Əminəm ki, haqq-ədalət öz yerini tutacaq. Azərbaycan xalqının haqq işi başa çatacaq. Azərbaycan xalqı müstəqilliyini tam bərqərar edəcək, bütün ərazisinin sahibi olacaq, bütün taleyinin sahibi olacaq, ölkəmiz müstəqil dövlət kimi əbədi yaşayacaqdır. Mən buna inanıram və əminəm ki, siz də inanırsınız. Əminəm ki, bütün Azərbaycanın həqiqi vətənpərvər insanları da, vətəndaşları da buna inanırlar.

Mən bu inamla bu gecədən ayrılıram və bu gecəni hazırlayanlara, onu tərtib edənlərin hamısına təşəkkür edirəm. Hörmətli şairimiz Zəlimxan Yaquba, hörmətli sənətkarımız Mikayıl Mirzəyə və bu mərasimdə iştirak edənlərin hamısına təşəkkür edirəm. Siz bizi həm kədərləndirdiniz, həm də bizə güc verdiniz, bizi nikbin etdiniz. Sağ olun. Bir daha, Allah Xocalı faciəsinin qurbanlarına rəhmət eləsin.

Sağ olun.